**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 77

Bakı şəhəri "25" iyul 2014-cü il

**"Hematoloji xidmətinin təkmilləşdirilməsi barədə"**

Hematoloji, xüsusən hemofiliya və talassemiya irsi qan xəstəliyinə düçar olmuş şəxslərə göstərilən tibbi yardımın təkmilləşdirilməsi, onların spesifik dərman preparatları, qan və qan komponentləri ilə təminatının yaxşılaşdırılması məqsədilə

**ƏMR EDİRƏM:**

1. Hemofiliya və talassemiya irsi qan xəstəliyinə düçar olmuş şəxslərə tibbi yardımın göstərilməsi, onların spesifik dərman preparatları, qan və qan komponentləri ilə təmin etmək məqsədilə B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankının şəhər (rayon) bölmələrində bir həkim-hematoloq və bir orta tibb işçisi ştatı olmaqla irsi qan xəstəlikləri kabinetləri yaradılsın.

2. B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Z.Əlimirzəyevaya tapşırılsın:

2.1. Mərkəzi Qan Bankının bölmələri haqqında əsasnamədə müvafiq əlavələr edilsin;

2.2. Mərkəzi Qan Bankının şəhər (rayon) bölmələrində yeni yaradılan rayonlararası irsi qan xəstəlikləri kabinetlərində işləmək üçün səriştəli və təcrübəli mütəxəssislər cəlb edilsin;

2.3. irsi qan xəstəlikləri kabinetlərinin mütəxəssislərinin Respublika Talassemiya Mərkəzində və Respublika Klinik Xəstəxanasının hematologiya şöbəsində iş yerində təcrübə keçmələri təmin edilsin;

2.4. talassemiya və hemofiliyalı xəstələrin müalicəsi üçün ayrılan spesifik dərman preparatlarının, qan və qan komponentlərinin istifadəsinə rayonlararası irsi qan xəstəlikləri kabinetləri tərəfindən nəzarət təmin edilsin;

2.5. respublikanın şəhər və rayon poliklinikalarının (poliklinika şöbələrinin) hematoloji kabinetlərin fəaliyyətinə institutun aidiyyəti struktur bölmələri, həmçinin rayonlararası bölmələri vasitəsi ilə təcrübi və təşkilatı-metodik köməkliyin göstərilməsi təmin edilsin.

3. Respublikanın şəhər və rayonların tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın:

3.1. hematoloji xəstələrə göstərilən tibb xidmətin yaxşılaşdırılması məqsədi ilə poliklinikalarda (poliklinika şöbələrində) ümumi ştat vahidləri çərçivəsində, bir həkim-hematoloq (olmadıqda terapevtə həvalə etməklə) və bir orta tibb işçisi ştatı olmaqla hematoloji kabinetləri yaradılsın;

3.2. talassemiya və hemofiliyalı xəstələrin müalicəsi üçün istifadə olunan spesifik dərman preparatlarının istifadəsinin uçotu aparılsın və bu barədə hər ay müvafiq olaraq Respublika Talassemiya Mərkəzinə və Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutuna məlumat göndərilsin;

3.3. hematoloji kabinetlərin həkimlərinin bilik və təcrübələrinin artırılması məqsədi ilə tədbirlər görülsün.

4. Respublika Talassemiya Mərkəzinin direktoru R.Rzayevə və Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Z.Əlimirzəyevaya tapşırılsın ki, rayonlararası irsi qan xəstəlikləri kabinetlərinə praktiki köməklik göstərilsin və metodik rəhbərlik təmin edilsin.

5. Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi E.Əliyevaya tapşırılsın ki, Bakı şəhərində hematoloji xidmətinin, həmçinin talassemiya və hemofiliyalı xəstələrə göstərilən tibbi yardımın təkmilləşdirilməsi barədə təkliflər 15 gün müddətində təqdim edilsin.

6. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru N.Qasımova tapşırılsın ki, hematologiyanın aktual məsələləri üzrə tematik kurslar təşkil edilsin.

7. İnnovasiya və Təchizat Mərkəzinin direktoru F.Əliyarzadəyə tapşırılsın ki, Tibbi yardımın təşkili şöbəsinin sifarişinə əsasən bu əmrin əlavəsində göstərilən səhiyyə idarə və müəssisələri talassemiya və hemofiliyalı xəstələrin müalicəsində istifadə olunan spesifik dərman preparatlarla təmin edilsin.

8. Əmrin icrasına nəzarət nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

Oqtay Şirəliyev